**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.29**

**MUSA QULİYEV**

# "DİKAYA DİVİZİYA"NIN 54 YAŞLI DÖYÜŞÇÜSÜ RƏHİM XAN KƏNGƏRLİ NAXÇIVANSKİ VƏ ONUN VARİSLƏRİ HAQQINDA

*Rusiya imperiyasının ordusunda Azərbaycanı və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanı cəsurluqla və ləyaqətlə təmsil edən general-mayor II Kalbalı xan Naxçıvanski öz oğullarını da bu ruhda böyütmüşdü. Onun oğlanlarının hamısı və oğul nəvələri XIX və XX yüzilliklərdə öz andlarına sadiq qalan hərbiçilər olmuşlar.*

*Azərbaycan hərb tarixinin sənədlərində Rəhim xan Kalbalı xan oğlu Naxçıvanskinin də özünəməxsus yeri vardır.*

**Açar sözlər:** *Naxçıvan, Tiflis, Vəhşi Diviziya, Tiflis realnı məktəbi, Xan Sarayı, Karpat dağları, Qərbi Ukrayna.*

**Giriş.** Rəhim xan Kəngərli-Naxçıvanski 17 fevral 1860-cı ildə Naxçıvan şəhərində doğulmuşdur. Şərqin və Avropanın ən nəcib xüsusiyyətləri ilə əhatə olunmuş bir ailədə böyüyən Rəhim xan Tiflisdə realni məktəbdə təhsil almışdır.

1877-1878-ci illərdəki rus-osmanlı müharibəsi dövründə 18-ci Pereyaslavski draqun polkunda döyüşə getmişdir. Naxçıvan şəhəri İrəvan quberniyasının tərkibində olduğundan həmin polkun tərkibində olan İrəvan dəstəsinin içərisində "adi ovçu hüququ" ilə fəaliyyət göstərmişdir. Döyüş cəbhələrində çox fərqlənən Rəhim xan 29 oktyabr 1877-ci ildə unter-zabit hərbi rütbəsinə layiq görülmüşdür. Elə həmin il dekabr ayının 19-da əsgərlər və zabitlər üçün təyin edilmiş Georgi hərbi ordeni ilə təltif edilmişdir. (Bu Georgi ordeni IV dərəcəli Müqəddəs Georgi ordenindən fərqlidir). 25 avqust 1878-ci ildə praporşik rütbəsini alan Rəhim xan Tiflisdə hərbi məktəbə oxumağa göndərilmiş və 11 sentyabr 1879-cu ildən 20 iyul 1880-ci ilədək Tiflis piyada yunker məktəbinin kurslarında oxumuşdur. 3 oktyabr 1880-ci ildən 22 noyabr 1881-ci ilədək Tiflisdə yerləşən Qafqaz təlim rota məktəbində də kurs keçmiş və orduda hərbi xidmətini davam etdirən Rəhim xan 1882-ci ildə kornet hərbi rütbəsinin də sahibi olmuşdur. 1882-ci ildə hansı səbəbdənsə hərbi xidmət zamanı sol gözünün zədələndiyi arxiv sənədlərində qeyd edilmişdir.

Çar hökuməti 1883-cü ildə ona bütün il ərzində 414 rubl gümüş pul maaş təyin etmişdir. 23 oktyabr 1883-cü ildə istefaya çıxmışdır. Rəhim xan istefaya çıxandan sonra Naxçıvana qayıtmışdır [7, v. 20-25]. Onu da deyək ki, arxiv sənədlərindəki səhvlərə baxmayaraq Rəhim xan qardaşı Cəfərqulu xandan bir yaş böyükdür. Cəfərqulu xan 1920-ci ildə Naxçıvan İnqilab Komitəsinə verdiyi ərizədə Rəhim xanı özünün böyük qardaşı kimi göstərmişdir [3, v. 3]. Rəhim xan öz ərizəsi əsasında ordudan tərxis olunmuşdur.

Buna əsas səbəb həmin ilin (yəni 1883-cü ilin) aprelində atasının vəfatı ilə bağlı idi. Çünki rəhmətə gedən generalın orduda olan oğullarından biri Naxçıvana qayıdıb atalarının mülklərini idarə etməliydi. 1885-ci ildə qardaşı Cəfərqulu xan da ordudan qayıtdı. Böyük qardaşları II Ehsan xan döyüşlərdə çox ciddi zədə almışdı. Tiflisdə müalicə olunurdu. Ailənin kiçik oğlu Hüseyn xan Sankt-Peterburqda paj korpusunda təhsilini tamamlamışdı. Onlar hamısı bir yerə yığışıb atalarının bütün işlərini idarə etməyi qardaşları Rəhim xana həvalə etdilər. Rəhim xan qardaşları və ata evində yaşayan bacılar arasında general atalarının varidatını bölüşdürdü. Ataları general-mayor II Kalbalı xan Naxçıvanski Naxçıvanda və Ordubadda irriqasiya işləri ilə, mədənlərdə faydalı qazıntıların çıxarılması, həmçinin maarifçilik və digər sahələrdə işlər apardığından hökumətə 83 min gümüş pulla borcu qalmışdı [6, s. 123]. Rəhim xan və qardaşları bu pulu da dövlət xəzinəsinə qaytarmalı idilər. Ona görə də elə ilk gündən Rəhim xan və Cəfərqulu xan qardaşları əhali ilə olduqca xoş münasibət saxlayıb işə girişdilər. O illərdəki sənədlərdən öyrənirik ki, onlar 83 min manat gümüş pulu xəzinəyə

qaytarırlar [4. v. 32].Bir çox kitablarda və bəzi gündəliklərdə Rəhim xanın nəinki Naxçıvanda, hətta qonşu Şərq ölkələrində də böyük nüfuza sahib olması haqqında da maraqlı məlumatlar vardır.

1905-ci ildə Naxçıvana gələn italyan yazıçısı, səyyahı və diplomatı Luici Villari Rəhim xanla və Cəfərqulu xanla görüşmüşdür. O, bu görüşlərini sonralar yazdığı kitabda təsvir etmişdir. Həmin kitab belə adlanır: "Fire and Sword in the Caucasus", (London, 1906). Diplomat və səyyah, yazıçı olan L.Villari Rəhim xan haqqında fikrini aşağıdakı kimi tamamlayır: "O, bir çox başqa tatarlardan fərqli olaraq yaxşı təhsil alıbdır. Rusiyaya və digər xarici ölkələrə çox səyahət edibdir. Rus dilini mükəmməl bilir, amma xarici-qərb ölkələrinin dillərində danışmır. Baxmayaraq ki, məni heç kim ona təqdim etmədi, ancaq o, məni çox səmimiyyətlə, açıq ürəklə qəbul etdi. Bu, məni çox təəccübləndirdi. O iliyinə qədər xandır. Bu, zahirən də görünür və belə təəssürat da yaradır ki, o, çox qədimlərdən gələn hakim insanların nəslindəndir... [6, s. 213-215]. Rəhim xan ulu babası I Kalbalı xandan qalma ata sarayında 1920-ci ilədək yaşayıb. Cəfərqulu xan və Hüseyn xan isə şəhərin mərkəzində, keçmiş Padşahlıq bağının (sonralar əhali oraya "Böyük bağ" da demişdir) yaxınlığında o dövr üçün çox dəbdəbəli olan Avropasayağı qoşa, yan-yana mülklər tikdiriblər (Zaman o mülkləri də bu günədək saxlayıb).

Rəhim xan Badamlı kəndinin yarı hissəsinin, Kənd Şahbuzun yarı hissəsinin, Keçili kəndinin üçdə birinin, Bistin, Ələhinin, Parağanın dörddə birinin atasından qalma miras sahibi olmuşdur. Onun Naxçıvan qəzasında üzüm və meyvə bağları, hamamları, tut bağları, əkin sahələri, boyaqxanası, xüsusi dəyirmanları və iki böyük mülkü olmuşdur [9, v. 42-43].

Birinci Dünya müharibəsi başlayanda o, könüllü ərizə verib cəbhəyə yollandı. Qafqazın yerli süvarilərindən təşkil olunmuş süvari diviziyanın ikinci Dağıstan polkunun tərkibində döyüşlərdə olmuşdur. Çox təəssüflər ki, çar ordusundakı cahillər bu polku "Dikaya diviziya" (Vəhşi diviziya) adlandırıblar. Saya-hesaba gəlməyən qələbələrin sahibi olan ikinci Dağıstan polkuna verilən "ad" cəsur qafqazlılara verilən təhqiramiz bir addır. Axı, hər bir hərbiçi kavaler olmağı ilə fəxr edirdi. Yeri gəlmişkən "kavaler" italyan sözü olub, ata minib vuruşan döyüşçü deməkdir. Qraf Vorontsov-Daşkov Rəhim xanı həmin diviziyaya məsləhət biləndə, Rəhim xan çox sevindi. Çünki bu polku rus-yapon müharibəsində sərkərdə qardaşı Hüseyn xan yaratmışdı. Kiyevdən keçib Karpat dağlarında vuruşan 54 yaşlı kornet Rəhim xanın hərbi hünərləri dildə gəzirdi [6]. Başqa cür də ola bilməzdi. Çünki o, çar ordusunda cəsurluğu ilə ad çıxaran "quş kimi uçan general"ın oğlu idi. At üstündə qartal kimi qıy vurub döyüşmək isə türk ərlərin işidir, onlar yaş nə olduğunu bilməzlər.

Qalitsiyanın (Qərbi Ukraynanın) çöllərində məharətlə vuruşan "Atlı diviziya"nın ən qoçaq əsgərlərindən biri olan Rəhim xan 26 avqust 1915-ci ildə müsəlman döyüşçülər üçün təsis edilmiş 3-cü dərəcəli müqəddəs Stanislav ordeni (bantla və qılıncla) ilə təltif olundu. Arxiv sənədlərinə görə, 9-cu ordunun generalı Leçitski çox böyük həvəslə bu əmri imzalayıb [10, v. 521]. İçdikləri anda çox sədaqətli bu diviziyanın (rusların "Tatar diviziya"sı adlandırdıqları) Qafqaz hərb tarixindəki hünərləri adamda heyrət yaradır.

Rəhim xan təxminən 1883-cü ildə Hacı Şükür Makinskinin qızı Münəvvər xanımla ailə qurmuşdur. Sənədlərdə onun anasının adı Ağabəyim kimi yazılıb. Ona görə bir çox tədqiqatçılar Ağabəyimin I Ehsan xanın qızı Lalabəyim olduğunu yazırlar. Bu, mümkündür. Çünki o, Hacı Şükür Makinskinin həyat yoldaşı olub [6, s. 340]. Hacı Ağabəyim Qacar İrəvan sərdarı general Həsən xanın-Sarı Aslanın qızıdır. Bəlkə də 1895-ci ildə Lalabəyim vəfat etdiyindən onun adı Şükür Makinskinin uşaqlarının yanında yazılmayıb?! Hər halda araşdırmalar bu suala cavab tapacaq. Rəhim xanın Münəvvər xanımla nikahından bir oğlan və bir qız doğulmuşdur. Xurşid xanım 1888-ci ildə, İskəndər xan isə 8 mart 1889-cu ildə doğulublar. Anaları Münəvvər xanım 1897-ci ildə vəfat edib [6, s. 425]. Rəhim xanın oğlu İskəndər xan Sankt-Peterburqda Əlahəzrətin 1-ci dərəcəli paj korpusunda təhsil alıb. 6 avqust 1910-cu ildə 17-ci Nijeqorod draqun polkunun korneti kimi hərbi xidmətə başlayıb. 4-cü eskadronun kiçik zabiti olan İskəndər xan 10 sentyabr 1913-cü ildə poruçik hərbi rütbəsini almışdır [12, v. 10-12]. Birinci Dünya müharibəsində döyüşüb. O, çeçen polkuna 24 may

1916-cı ildə döyüşçü əsgər kimi dəyişdirilib. 21 mart 1917-ci ildə ştabs-rotmistr hərbi rütbəsini alıb [13, v. 10-12] . Həmin illərin qəzetlərində onunla bağlı xeyli maraqlı məlumatlar vardır.

23 iyun 1915-ci ildə 3-cü dərəcəli (bantla və qılıncla) Müqəddəs Stanislav ordenini, 16 may 1916-cı ildə həmin ordenin 2-ci dərəcəsini, 15 aprel 1915-ci ildə üzərində "İgidliyə görə" yazılan 4-cü dərəcəli Müqəddəs Anna ordenini, 7 mart 1915-ci ildə həmin ordenin 3-cü dərəcəsini (bantla və qılıncla) və nəhayət, 19 yanvar 1915-ci ildə 4-cü dərəcəli Müqəddəs Vladimir (bantla və qılıncla) ordeni ilə təltif edilmişdir [14, v. 46-60, 65-68].

Naxçıvanda sovet hökuməti qurulandan sonra İrana mühacirət etmiş və Tehranda yaşamışdır. 1934-cü ilin məlumatına görə, o, Tehranın ən varlı adamlarından biri idi [6, s. 347]. Burada çox vacib bir haşiyə çıxmaq maraqlı olardı. Naxçıvanlı Hüseyn Teymurlu (Bənəniyarski) uzun illər qürbətdə, Moskva yaxınlığındakı Saltıkovka qəsəbəsində yaşamışdır. O, Moskvanın ali məktəblərində dərs demişdir. Teymurlu ömrünün son illərində "Naxçıvan xanları haqqında xatirələr"ini yazmışdır. Onun Rəhim xanın oğlu haqqında yazdıqları maraqlıdır: "Cəfərqulu xanın qardaşı Rəhim xanın bir oğlu, bir qızı var idi. Oğlu Əhməd xan (ləqəbi Xanlar xan) 1941-ci ildə İranın hərbi naziri idi. 1944-cü ildə Məhəmməd Rza şah ona marşal rütbəsi vermişdi. İranda onun adı Əhməd Naxçıvani idi...". Müəllif öz yazdığı xatirələrində qeyd edir ki, o, Əhməd xanı tanıyırmış [5]. Bu yazımızda bir daha həmin xatirələrə qayıtmaqda məqsədimiz var. Xatirədə adıçəkilən Əhməd xan elə İskəndər xandır. Onun tərcümeyi-halından görürük ki, o, çar Rusiyasının hələ gənc yaşlarında bacarıqlı və cəsur hərbiçilərindən biri olub. Yəni, onun İranda belə mövqe tutması şübhə doğurmur. Həm də onun ana nənəsi general Sarı Aslanın qızı olduğundan Tehranda İskəndər xan üçün maneə yox idi. Qaldı onun adının Əhməd xan yazılması məsələsi. Əhməd xan Rəhim xanın hərbiçi babasının (ana tərəfdən) adıdır. Evdə onu belə çağırırmışlar. Bir də ki, o, ulu babası I Ehsan xanın sonbeşik qardaşı İskəndər xanın adını daşıyırdı. Buna görə də evdə və Naxçıvanda hamı ona hörmətlə "Xanlar xanı" deyirmiş. Rəhim xan qızına anası Xurşid xanımın adını verib. Və o, qızını Sankt-Peterburqda əmisi Hüseyn xanın yanında, sonra isə Moskvada oxudub. Xurşid xanım məşhur general Feyzulla Mirzə Qacarla ailə qurmuş və Şəfi xan adında bir oğulları olmuşdur. 1920-ci ildə general Feyzulla Mirzə Qacarı bolşeviklər Nargin adasında güllələmişlər. Oğlu Şəfi xan haqqında heç bir məlumat tapmadıq. Xurşid xanım ömrünün sonunadək nəzarətdə yaşadı. Çünki M.C.Bağırov Naxçıvanın xan hərbiçilərini sevmirdi. Rəhim xanın qızı Xurşid xanıma xəbər göndərirdi ki, sürgün olunmaq istəmirsə, Naxçıvanskaya familiyasından istifadə etməsin. Ona görə də 1920-ci ildən sənədlərdə onun birinci həyat yoldaşının familiyası yazılıb. Məşhur opera müğənnisi Xurşid xanım qədim oğuz türk tayfası olan Kəngərlilərdəndir. Naxçıvanın Kəngərli zadəganlarından olan hərbçi Rəhim xan Naxçıvanskinin qızıdır. Xurşid xanımın şəxsi arxivinin bir hissəsi Bakıda C.Cabbarlı adına Teatr Muzeyinin Arxivində saxlanılır [1, s. 138-142].

1918-1920-ci illərdə Naxçıvanın erməni daşnaklarından müdafiə olunmasında, həmçinin naxçıvanlı gənclərin döyüşə hazırlanmasında Rəhim xanın və oğlu İskəndər xanın böyük xidmətləri vardır. Rəhim xan 1918-ci ildə Naxçıvan Milli Şurasında bir müddət xalq qoşunlarının komandanı olmuşdur [2, s. 19]. Araşdırmalar göstərir ki, Rəhim xan Naxçıvanskinin Naxçıvanın ictimai-siyasi və hərbi həyatında əvəzsiz rolu olmuşdur. Lakin 1920-ci ilin avqustun sonlarında Naxçıvan İnqilab Komitəsi Rəhim xanı və oğlunu Naxçıvandan sürgün etməyi qərarlaşdırmışdır. Rəhim xan Naxçıvanski 1920-ci il avqustun 29-da Naxçıvan İnqilab Komitəsinin sədrinə məktub yazmışdır: "Qırx iki ildir Naxçıvanda yaşayıram. Təsdiq edərlər ki, bu müddətdə milliyyətlərindən asılı olmayaraq, evimdə qonaqlar qəbul etmiş və onların xidmətində olmuşam. Son üç ildə 400 rus dəmiryolçusuna, qaçqınlara köməklik etmişəm. Ona görə də müflis olmuşam. Xahiş edirəm ki, Bakıya aparacağım yükün bir neçə pud artırılmasına köməklik edəsiniz" [3, v. 6]. Ancaq onun xahişinə əməl etmirlər. İskəndər xan bolşeviklərin hiyləsini bilərək sürgün qərarından əvvəl İrana mühacirət etdiyindən bolşevik hökuməti onu sürgün edə bilməmişdir. İndi aşkar olur ki, Xurşid xanıma edilən təzyiqlər və xüsusi

nəzarət o tayda olan yüksək rütbəli qardaşı ilə çox bağlı imiş. Dövrünün məşhur opera müğənnisi olan Xurşid xanım 1963-cü ildə Bakıda vəfat edib.

**Nəticə.** Naxçıvanın Kəngərli süvarilərinin hərb tarixini öyrəndikcə, araşdırdıqca aydın olur ki, onlar ötüb gedən yüzilliklərdə döyüş bacarıqları və hünərləri ilə hərb tariximizin qəhrəmanlıq səhifələrini yazmışlar. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Azərbaycanın və Rusiyanın hərb tarixində iz qoymuş cəsur döyüşçülərdən biri də "Vəhşi diviziya"nın igid döyüşçülərindən biri də hərbçi, maarifçi və xeyriyyəçi Rəhim xan Naxçıvanskidir. Rusiya ordusunda ləyaqətlə xidmət edən Rəhim xan istefaya çıxandan sonra Naxçıvanda xeyriyyəçiliklə və maariflə məşğul olmuşdur. 1918-1920-ci illərdə Naxçıvan bölgəsinin erməni daşnaklarından müdafiə olunması işinə başçılıq etmişdir. Kəngərli Naxçıvanskilərin Azərbaycanın, Rusiyanın və İranın hərb tarixində əvəzsiz rolu bu gün də diqqət çəkir. Çünki Qafqazda doğulan və onun azadlığı uğrunda vuruşan süvarilərin, ən yüksək hərbi mükafatların kavalerlərinin tale yollarında məğrur Qafqazın işıq və kölgəsi var. Daha çox bu işığın cazibəsində o igid kavalerlərin həyatlarının öyrənilməmiş səhifələri bizi axtarışlara səsləməkdədir.

## ƏDƏBİYYAT

1. Quliyev M. Xurşid xanım Naxçıvanskaya-Qacar // Tarix və onun problemləri, 2024, № 3.
2. Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı, 1993, 142 s.
3. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi(NMRDA): F. 63, siyahı 2, iş № 9, 21 v.
4. NMRDA: f. 40, siy. 3, iş № 65, 34 v.
5. Teymurlu H. (Bənəniyarski). Naxçıvan xanları haqqında xatirələr. Moskva, 1990. (Əlyazması hüququnda müəllifin arxivindədir).
6. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской Империи. Москва, 2006, 432 с.
7. Российский Государственный Исторический Архив (РГИА): ф. 400, оп. 9, д. № 36040.
8. РГИА: ф. 396, оп. 1, д. № 979.
9. РГИА: ф. 593, оп. 26, д № 1716.
10. РГИА: ф. 3530, оп. 1, д № 137.
11. Российский Государственный Военно-Исторический Архив (РГВИА): ф. 407, оп. 1, д № 2254.
12. РГВИА: ф. 408, оп. 1, д № 846.
13. РГВИА: ф. 407, оп. 1, д № 2045.
14. РГВИА: ф. 407, оп. 1, д № 2254.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kuliyevm@yandex.ru***

**Musa Guliyev**

## THE 54-YEAR-OLD CAVALRYMAN OF THE WILD DIVISION – RAHIM KHAN NAKHCHIVANSKI-KANGARLI

Major General Kalbali khan Nakhchivanski II, who represented Azerbaijan and its inseparable part, Nakhchivan, with courage and dignity in the army of the Russian Empire, raised his sons in the same spirit. All of his sons and grandsons remained loyal to their military oaths and served as soldiers during XIX and XX centuries. Rahim khan Nakhchivanski, son of Kalbali khan II, occupies a distinctive place in the documents of the military history of Azerbaijan. The article speaks about the life and activity of Rahim khan Nakhchivanski-Kangarli, the 54-year-old warrior of the Wild

Division. It also sheds light on his education in Tiflis, his military service in the 18th Dragoon Regiment, and his voluntary participation in the World War I through a personal petition.

The article is based on newly discovered archival documents and published books.

**Keywords:** *Nakhchivan, Tiflis, the Wild Division, Tiflis Real School, Khan's Palace, the Carpathian Mountains, Western Ukraine.*

**Муса Гулиев**

## 54-ЛЕТНИЙ КАВАЛЕРИСТ ДИКОЙ ДИВИЗИИ – РАГИМ ХАН НАХЧЫВАНСКИЙ-КЕНГЕРЛИ

Генерал-майор Калбалы хан Нахчыванский II, представлявший Азербайджан и его неотъемлемую часть Нахчыван с мужеством и достоинством в армии Российской империи, воспитывал своих сыновей в том же духе. Все его сыновья и внуки остались верны своей воинской присяге и служили солдатами в течение XIX и XX веков. Рагим хан Нахчыванский, сын Калбалы хана II, занимает особое место в документах военной истории Азербайджана. В статье говорится о жизни и деятельности Рагим хана Нахчыванского-Кенгерли, 54-летнего воина Дикой дивизии. В ней также освещаются его образование в Тифлисе, его военная служба в 18-м драгунском полку и его добровольное участие в Первой мировой войне посредством личного прошения.

Статья основана на недавно обнаруженных архивных документах и изданных книгах.

**Ключевые слова:** *Нахчыван, Тифлис, Дикая Дивизия, Тифлисское училище, ханский дворец, Карпатские горы, Западная Украина.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 08.09.2025**
**Son variant 02.10.2025**